# “Yürüş iştirakçıları üçün əla imkanlar yaradılıb”







**Bu günlərdə Azərbaycan paytaxtı Formula 1 üzrə dünya çempionatının altıncı – Azərbaycan Qran-Pri yarışlarının həyəcanlı anlarını yaşayır. Bu nüfuzlu yarışın dünyanın hər yerində saysız-hesabsız azərkeşlərinin diqqəti Bakıya yönəlib. Builki yarışlara maraq xüsusilə böyükdür. Axı, Bakı şəhər halqasında dünyanın ən məşhur pilotları – Luis Hemilton, Fernando Alonso, Sebastyan Fettel, Valtteri Bottas və digərləri yarışırlar.**

Yeri gəlmişkən, yarış həftəsonuna Formula 2 üzrə sərbəst yürüşlə start verilib. Yürüşdə hər biri iki pilotla təmsil olunan 11 komanda birincilik uğrunda mübarizə aparıb. Qırx beş dəqiqə davam edən yarışda “Hitech Grand Prix” komandasının estoniyalı pilotu Jüri Vips bütün rəqiblərini üstələyərək birinci olub. “Campos” komandasından Ralf Boşunq sərbəst yürüşü ikinci, “Art Grand Prix”un sürücüsü Theo Pourçaire isə üçüncü yerdə başa vurublar.

Dünən Juri Vips ilə görüşüb ondan Bakı trekinin özəllikləri, eləcə də yarışın ilk günü ilə bağlı təəssüratları barədə söz açmasını xahiş etdik. Məşhur idmançı çox tələsirdi, amma macal tapıb bunları dedi:

– Bu il avqustun 20-də mənim 21 yaşım olacaq. Özüm Estoniyadanam. Sizin ölkəniz kimi bizim Estoniya da dənizin sahilində yerləşir. Artıq dünyanın bir çox ölkələrində həm idmançı, həm də turist kimi olmuşam. Səmimi deyirəm: Sizin ölkənizin paytaxtı çox xoşuma gəlibdir. Sakinlər güləruz və mehribandırlar.

O ki qaldı Bakı trekinin özəllikləri barədə onu deyə bilərəm ki, Azərbaycan paytaxtının Formula 1 təqvimində özünəməxsus yeri olan bənzərsiz trası var. Bu, çempionatın ən uzun və düz xətlərindən birinə sahib qeyri-adi şəhər trasıdır. İkinci sektor aşağı sürətlə hərəkət etməli olduğumuz çoxlu sayda döngələrdən ibarətdir. Həmin döngələrdəki orta sürət Monakodakı trasda olduğundan da aşağıdır. Burada sıxılan güclə sürət arasında uyğunlaşmanı dəqiq tapmaq lazımdır.

Tədbir yüksək səviyyədə təşkil olunub. Bakıda bütün yarış iştirakçıları üçün əla imkanlar yaradılıb. Mən Xəzərin sahilində yerləşən bu gözəl və qədim şəhərdə hazırda çox pozitiv əhvali-ruhiyyədəyəm. Görünür, yarışların birinci günü qalib olmağıma bu amilin böyük təsiri olub (gülür-M.H).

Bakıya fürsət düşən kimi yenidən gələcəyəm. Mənim salamlarımı lütfən qəzetinizin oxucularına, bütün idman həvəskarlarına çatdırın. Təşəkkür edirəm.

***Söhbəti qələmə aldı:***
***M.HACIXANLI, “Xalq qəzeti”***

Xalq qəzeti 2021.- 6 iyun.- S.4.